# İnamın, qətiyyətin, yüksək nüfuzun uğur vəhdəti

*"Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə, Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir". Bu fikirləri Vaşinqtonda Prezident İlham Əliyev ABŞ səfərinin nəticələri ilə bağlı Azərbaycan media nümayəndələrinə müsahibəsində söyləyib.*

## Dövlət başçısının ABŞ-a səfəri regional və beynəlxalq müstəvidə mühüm tarixi hadisə olaraq dəyərləndirilir

Dövlət başçısı bildirib ki, Prezident Trampla görüşümüz çox səmimi, dostluq şəraitində keçdi. Bir çox önəmli məsələlər müzakirə edildi. Eyni zamanda, Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün Strateji İşçi Qrupu da yaradıldı və əlbəttə ki, bu sənədin böyük əhəmiyyəti var. Orada gələcək əməkdaşlıq istiqamətləri də açıq-aydın təsbit edilib. Bunlar qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələləri ehtiva edir. Yəni, sadəcə olaraq bu istiqamətlərin sadalanması onu göstərir ki, ölkəmiz qarşısında nə qədər böyük imkanlar açılır.

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri Cənubi Qafqazda sülh, iqtisadi imkanlar, investisiyalar, enerji təhlükəsizliyi və digər sahələrin inkişafı baxımından çox mühüm oldu. Müzəffər Ali Baş Komandan döyüş meydanında qazanılan zəfərləri Vaşinqtonda, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı və imzası ilə rəsmiləşdirdi. Vaşinqtonda keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan sənədlər və əldə olunan razılaşmalar təkcə Cənubi Qafqaz üçün deyil, həm də qlobal geosiyasi müstəvidə Azərbaycana mühüm üstünlüklər yaratdı. İllərlə davam edən gərginlikdən sonra Ağ Evdə Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə sülh sazişi paraflandı. Keçmiş Qarabağ münaqişəsini tamamilə tarixə qovuşdurdu, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq miqyasda bir daha təsdiqlədi, ölkəmizin regiondakı mövqeyini hüquqi və siyasi baxımdan möhkəmləndirdi. Bu uğurlar bir daha sübut edir ki, Azərbaycan milli maraqlarını qorumaqda və onları beynəlxalq müstəvidə təmin etməkdə qətiyyətlidir. Bu, həm Azərbaycan, Ermənistan, həm də bütün bölgə üçün xüsusi əhəmiyyətə malik məsələdir. Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin inkişafında, Azərbaycan-Ermənistan normallaşması işində atılan addımlar, Birgə Bəyannamənin imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin bu dəstəyi və şahidlik etməsi bir daha Bəyannamənin önəmini göstərir.

Vaşinqton səfəri uzun müddət ərzində Bayden-Blinken administrasiyası, Makron, Avropa Birliyi, Avropa Şurası və Avropa Parlamenti kimi mərkəzlər tərəfindən aparılan "Azərbaycanı güzəştlərə məcbur etmək" siyasətinin tam iflası oldu. Siyasi və diplomatik təzyiqlərə, beynəlxalq mediada təşkil olunan qarayaxma kampaniyalarına, sanksiya hədələrinə baxmayaraq, Prezident İlham Əliyev bir addım belə geri çəkilmədi. Əsl liderə xas olan qətiyyət, prinsipiallıq və siyasi iradə nümayiş etdirdi, diplomatik strategiyasını tam həcmdə və uğurla gerçəkləşdirdi. Azərbaycanla təzyiq dilində danışmağa çalışanlar bu gün gerçəkliyi qəbul etmək məcburiyyətindədirlər.

Ölkə başçısının sülh prosesində liderliyi regionu yeni müharibələrdən xilas edib. Sülh neçə-neçə gəncin həyatının xilas edilməsi, qurbanlara son qoyulması deməkdir. Bəllidir ki, regionu yeni müharibələrə sürükləmək istəyən şər qüvvələr az deyildi. Amma Prezident İlham Əliyev müharibədə Qələbə qazanaraq, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi, eyni zamanda, sülh gündəliyini uğurla gerçəkləşdirdi. Azərbaycan və Ermənistan liderlərinin ABŞ-da imzaladığı sənəd regionun gələcək təhlükəsizlik və əməkdaşlıq arxitekturasını müəyyənləşdirir. ABŞ Prezidenti Donald Trampın diplomatik iradəsi və dövlətimizin başçısı İlham Əliyevin siyasi məharəti nəticəsində Rusiya Qafqazda vasitəçilik missiyasından kənarlaşdırıldı. Bu, yalnız Azərbaycan-Ermənistan prosesində deyil, bütövlükdə Avrasiya regionunda geosiyasi xəritənin yenidən çəkilməsi deməkdir.

ABŞ səfəri göstərdi ki, Azərbaycan yalnız regional deyil, qlobal siyasətdə də mühüm oyunçudur. Dövlətimizin başçısının prinsipial mövqeyi, diplomatik məharəti və milli maraqları qətiyyətlə müdafiə etməsi beynəlxalq aləmdə ölkəmizə olan hörməti artırıb. Vaşinqtonda imzalanan sülh sənədi həm xalqımız, həm də bütün Türk dünyası üçün qürur mənbəyidir. Prezident İlham Əliyevin Vaşinqtondakı çıxışı bir daha göstərdi ki, Azərbaycanın mövqeyi dəyişməzdir: ədalətli sülh, bərabərhüquqlu münasibətlər və qarşılıqlı hörmət. Bu sözlər, sadəcə, diplomatik protokol ifadələri deyil, həm də xalqın illərlə gözlədiyi ümidin təcəssümüdür.

Dövlət başçısının Vaşinqtonda nümayiş etdirdiyi liderlik xüsusilə diqqət çəkib. ABŞ Prezidenti Donald Tramp görüş zamanı göstərdiyi jest və səmimi qonaqpərvərliyi ilə bunu təsdiqləyib. Görüşdə Prezident İlham Əliyevin Azərbaycanla ABŞ arasında Anlaşma Memorandumunu imzaladığı qələmi "tarixi qələm" adlandıraraq xatirə kimi özü ilə götürüb. D.Tramp isə Azərbaycan liderinin imzasının gözəl olduğunu deyib və Prezident İlham Əliyevi Qarabağ məsələsində göstərdiyi qətiyyətə görə "böyük lider" adlandırıb. Azərbaycan Prezidenti dünyadakı bir çox yerlərdə münaqişənin həllinə töhfə verən, sülh gətirən böyük liderin məhz onun yanında əyləşdiyini söyləyib. Daha sonra D.Tramp Prezident İlham Əliyevin yüksək səviyyədə danışıq aparma bacarığını vurğulayaraq onu həm özü, həm də nəvələri üçün qızıl sikkələr hədiyyə edib. ABŞ-ın Vaşinqtondakı Oval ofisinin rəmzi açarının Azərbaycan Prezidentinə təqdim olunması çox az şəxsə nəsib olan yüksək etimaddır.

ABŞ ilə Azərbaycan arasında müdafiə və əməkdaşlıq sazişi imzalanıb, ABŞ Konqresinin "907-ci düzəliş"inin ləğv edilməsi qərara alınıb. Azərbaycan bundan sonra ABŞ tərəfindən heç bir embarqoya məruz qalmayacaq. Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihənin reallaşması da sülh prosesinə böyük töhfələr verəcək. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra region çox böyük inkişaf yoluna qədəm qoyacaq. Təkcə region deyil, Yaxın Şərq və Mərkəzi Asiya üçün, ümumilikdə isə bütün dünya üçün çox böyük perspektivlər açılacaq. Cənubi Qafqazla birlikdə Yaxın Şərq və Mərkəzi Asiya da inkişaf edəcək. Cənubi Qafqaz, Qazaxıstan, Çin və digər dövlətlər arasında birbaşa əlaqə yaranacaq. Çin məhsulları Qazaxıstan vasitəsilə, Orta Dəhlizlə işə düşəcək Zəngəzur dəhlizi ilə daşınacaq. Bu, çox qısa yoldur. Bundan əlavə, ATƏT-in Minsk Prosesi və onunla əlaqəli strukturların bağlanmasına dair ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət, SOCAR ilə "Exxon-Mobil" şirkəti arasında "Əməkdaşlıq Memorandumu" imzalanıb. Sənəd şirkətlər arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirmək və Azərbaycan Respublikasında həm qeyri-ənənəvi, həm də ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini ehtiva edir. Prezident İlham Əliyevin müsahibəsində də bildirdiyi kimi, Azərbaycan təbii qazını NATO-nun 10 üzvünə, ABŞ-ın 10 müttəfiqinə ixrac edir. Boru kəməri vasitəsilə qaz çatdırılmasında isə 14 ölkə əhatə olunur ki, bu baxımdan, Azərbaycan dünyada aparıcı ölkələrdən biridir.



Azərbaycan Prezidenti İlham Əliyevin səfəri və Ağ Evdə mətbuata bəyanatı, eləcə də Azərbaycan media nümayəndələrinə müsahibəsi strateji əhəmiyyət daşıyan diplomatiya nümunəsi kimi qiymətləndirilir. Bu səfər və çıxışlar, Azərbaycanın xarici siyasətində prioritet olan bir sıra məsələlərə işıq tutmaqla yanaşı, regional və qlobal səviyyədə artan təsirini də nümayiş etdirir. Nəticə etibarilə, Prezident İlham Əliyevin ABŞ səfəri və Ağ Evdəki çıxışı, Azərbaycanın qlobal arenada artan nüfuzunu və regional liderlik iddiasını bir daha təsdiqləyir. Səfər təkcə ikitərəfli münasibətlər üçün deyil, həm də Qafqazın gələcəyi üçün strateji əhəmiyyət daşıyır. ABŞ ilə əməkdaşlığın dərinləşməsi Azərbaycanın müstəqil xarici siyasətinin uğuru kimi qiymətləndirilir. Prezident İlham Əliyev bu günün Azərbaycan xalqının yaddaşına həkk olunacağını söylədi. Dövlət başçımız Prezident Trampın strateji baxışı və münasibəti sayəsində nəinki Cənubi Qafqaz regionunda, həmçinin son aylarda Asiyada, Afrikada müharibələrə son qoyulduğunu vurğuladı. Azərbaycan "Mən təklif etmək istəyirəm. Bəlkə biz Baş nazir Paşinyanla razılaşaraq birgə bir təşəbbüs də irəli sürək, Nobel sülh mükafatının sülh komitəsinə göndərək ki, cənab Tramp bu mükafata layiqdir. Müharibə içində olan iki ölkənin rəhbərləri kimi bu tarixi imzalanma mərasimində iştirak etmək həqiqətən də real bir nailiyyətdir və heç kəs bu nailiyyətə imza ata bilmirdi. Amma Prezident Tramp cəmi altı ay ərzində möcüzəyə imza atdı".

Cənubi Qafqazda güc balansı Azərbaycanın xeyrinə dəyişdi. ABŞ-ın regionda fəal mövqeyi Rusiya və İranın təsirini zəiflətdi, Azərbaycanın beynəlxalq müttəfiqlər şəbəkəsi genişləndi. Bu, ölkəmizin gələcəkdə həm təhlükəsizlik, həm də iqtisadi baxımdan daha sabit mühitdə inkişaf etməsinə şərait yaradacaq. Səfər çərçivəsində Azərbaycan ilə ABŞ arasında texnologiya, kənd təsərrüfatı, enerji və təhlükəsizlik sahələrində bir neçə iri layihə üzrə razılıqlar da əldə olundu. Amerika şirkətlərinin Azərbaycana investisiya marağı artdı, bu isə yeni iş yerləri, müasir texnologiyaların ölkəyə gətirilməsi və qeyri-neft sektorunun inkişafı deməkdir.

Son illər Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər təkcə ənənəvi diplomatik əməkdaşlıq çərçivəsində inkişaf etməklə kifayətlənmir, eyni zamanda, keyfiyyətcə yeni - strateji müttəfiqlik səviyyəsinə yüksəlməkdədir. Xüsusilə Donald Trampın ikinci prezidentliyi dövründə Vaşinqtonun Cənubi Qafqaz siyasətində Azərbaycanın rolu ön plana çıxıb. Enerji təhlükəsizliyi, regional sabitlik və antiterror əməkdaşlığı kimi sahələrdə qarşılıqlı maraqların artması iki ölkə arasında münasibətlərin daha dərin və qarşılıqlı etimada əsaslanan bir platformaya keçməsini şərtləndirib, yüksələn dinamikanın davamı və yeni strateji mərhələnin əsasını qoya biləcək mühüm siyasi addım kimi qiymətləndirilir. Prezident İlham Əliyevin ABŞ-a budəfəki səfəri yalnız Azərbaycan-ABŞ münasibətlərinin genişlənməsi baxımından deyil, eyni zamanda, beynəlxalq informasiya müstəvisində Azərbaycanın mövqeyinin gücləndirilməsi və diplomatik sahədə əldə etdiyi növbəti uğur kimi dəyərləndirilir. Bu səfər Azərbaycanın regional və qlobal siyasətdə öz prinsipial, müstəqil mövqeyini təsdiqləməklə yanaşı, illərdir ölkəmizə yönəlmiş siyasi təzyiqlərə, informasiya manipulyasiyalarına qarşı qəti və diplomatik cavabdır. Prezident İlham Əliyev Vaşinqtondakı mükəmməl siyasi-diplomatik davranışları ilə yeni dünya nizamının mahiyyətinə dərindən bələd olan bir liderin nailiyyətlər salnaməsinin yeni səhifələrini yazdı.

**Mustafa KAMAL,**
**"Respublika".**